DOI: https://doi.org/10.36719/2663-4619/115/206-210

**Hüseyn Quliyev**
Azərbaycan Respublikası DİN-in Polis Akademiyası
https://orcid.org/0009-0002-8686-4995
huseynguliyeff@gmail.com

# Dövlət hakimiyyəti nümayəndələrinə və dövlət başçılarına qarşı törədilən təhqir cinayətinin, internet məkanı və sosial şəbəkələrdə təhqir hallarına beynəlxalq yanaşma və Azərbaycan Respublikası qanunvericiliyi ilə müqayisəli təhlili

## Xülasə

Müasir dövrdə hüquq sistemləri dəyişən ictimai münasibətlərə uyğun inkişaf etməlidir. Bir çox ölkələrdə dövlət hakimiyyəti nümayəndələrinin təhqir və böhtandan müdafiəsi qanunla təmin olunur. Bu, onların vəzifələrini icra edərkən şərəf və ləyaqətlərinin qorunmasına xidmət edir. Azərbaycan Konstitusiyası bu hüququ tanısa da, Cinayət və İnzibati Xətalar Məcəlləsində bu sahədə konkret sanksiyalar mövcud deyil. Sosial şəbəkələrin təsiri ilə hüquq-mühafizə orqanlarına qarşı təhqiramiz münasibətlərin artması, bu cür əməllərin qanunla ayrıca normativ tənzimlənməsini zəruri edir. MDB və Avropa ölkələrinin əksəriyyətində dövlət qulluqçularının və dövlət başçılarının təhqirinə görə cinayət məsuliyyəti mövcuddur. Məsələn, Rusiya, Belarus, Almaniya, Polşa və Türkiyədə bu əməllər azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Bəzi ölkələrdə isə bu ifadə azadlığı kimi qiymətləndirilir (məsələn, ABŞ). Beynəlxalq təşkilatlar dövlət vəzifəlilərinin daha geniş tənqidə dözümlü olmalı olduğunu qeyd etsə də, şəxsi ləyaqətin qorunması da vacibdir. Azərbaycanda isə bu balansı qorumaq məqsədilə qanunvericiliyə xüsusi normaların əlavə edilməsi təklif olunur.

***Açar sözlər:*** *cinayət, dövlət hakimiyyəti nümayəndəsi, dövlət başçısı, hüquq-mühafizə orqanları, cəza, təhqir, böhtan, şərəf, ləyaqət, hüquq pozuntusu*

**Huseyn Guliyev**
Police Academy of the Ministry of Internal Affairs of the Republic of Azerbaijan
https://orcid.org/0009-0002-8686-4995
huseynguliyeff@gmail.com

# Insults Against Representatives of State Authority and Heads of State, Cases of Insults in the Internet Space and Social Networks: International Approaches and Comparative Analysis with the Legislation of the Republic of Azerbaijan

## Abstract

In the modern era, legal systems must evolve in accordance with changing social relations. In many countries, the protection of representatives of state authority from insult and defamation is ensured by law. This serves to safeguard their honor and dignity while performing their official duties. Although the Constitution of Azerbaijan recognizes this right, there are no specific sanctions in this regard in the Criminal Code or the Code of Administrative Offenses. The increasing number of insulting attitudes towards law enforcement agencies, particularly under the influence of social media, necessitates the separate legal regulation of such acts. In most UIS and European countries, there is criminal liability for insulting public officials and heads of state. For example, in Russia, Belarus, Germany, Poland, and Turkey, such actions are punishable by imprisonment. In some other countries, such as the United States, such acts are considered part of the freedom of expression.

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

While international organizations emphasize that public officials should be more tolerant of criticism, the protection of individual dignity remains equally important. In Azerbaijan, it is proposed to introduce special provisions into the legislation in order to maintain this balance.

***Keywords:*** *crime, representative of state authority, head of state, law enforcement agencies, punishment, insult, slander, honor, dignity, violation of law*

## Giriş

Dəyişən və inkişaf edən dünyada hüquq sistemlərinin dəyişikliyə uğramadan davam etməsi mümkün deyil və bir çox ölkələr bu proseslə ayaqlaşa və dövrün tələblərini qarşılaya bilirlər. Bir çox ölkələrdə dövlət hakimiyyəti nümayəndələrini təhqir etmək və ya böhtan atmaq xüsusi maddələrlə sanksiyalaşdırılmışdır. Bu vasitə ilə öz xidməti vəzifələrini yerinə yetirən vəzifəli şəxslərin şərəf və ləyaqəti, işgüzar nüfuzu qorunmuş olur.

Azərbaycan Respublikasının Konstitusiyasının 46-cı maddəsində hər kəsin öz şərəf və ləyaqətini müdafiə etmək hüququnun olması, şəxsiyyətin ləyaqətinin dövlət tərəfindən qorunduğu, heç bir halın şəxsiyyətin ləyaqətinin alçaldılmasına əsas verə bilməməsi, heç kəsə işgəncə və əzab verilə bilinməyəcəyi, heç kəsin insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməyəcəyi, özünün könüllü razılığı olmadan heç kəsin üzərində tibbi, elmi və başqa təcrübələr aparılmaması göstərilmişdir (Republic of Azerbaijan, 1999).

**Tədqiqat**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi və Cinayət Məcəlləsində sırf dövlət hakimiyyəti nümayəndələrinə onların vəzifə səlahiyyətlərini yerinə yetirmələri ilə əlaqədar edilən təhqir və böhtan halları ilə bağlı xüsusi norma müəyyən edilməmişdir. Azərbaycan Respublikasının “Dövlət qulluğu haqqında” Qanununda dövlət qulluqçularının təhqirdən müdafiə edilməsi və “Polis haqqında” qanunda polis əməkdaşının təhqir edilməsinin qanunla qadağan edilməsi göstərilsə də, bu normalar sanksiyalaşdırılmamışdır. Lakin bu cür xüsusi normanın yaranmasına xüsusi ehtiyacın olması son illər ərzində daha da kəskin şəkildə nəzərə çarpmağa başlamışdır (Greek Penal Code). Sosial şəbəkələrin geniş istifadə edilməsi nəticəsində cəmiyyətdə mənfi xarakterizə edilən şəxslər bəzi hüquq-mühafizə orqanlarına qarşı açıq şəkildə təhqiramiz ifadələr işlədərək bu orqan əməkdaşlarının işgüzar nüfuzuna zərər vurmağa cəhdlər göstərmişdir. Bu, zərərçəkənin şəxsi və (və ya) peşə (xidmət) keyfiyyətlərini təhqir etməklə, onun vəzifə səlahiyyətlərini icra edərkən və ya bu fəaliyyətlə əlaqədar baş verir və nalayiq və ya digər formada ifadə olunaraq zərərçəkənin şərəf və ləyaqətini alçaldan hərəkətlərdən ibarət olur (Council of Europe, 2007).

Belə bir təhqir zərərçəkənə ünvanlanan təhqiramiz ifadələrin açıq şəkildə ifadə edilməsi, kütləvi informasiya vasitələrində və ya internet şəbəkəsində digər şəxslərin məhdudiyyətsiz şəkildə bu məlumatlara çıxışı olan formada zərərçəkəni alçaldan informasiyanın yerləşdirilməsi və ya digər açıq-aşkar hərəkətlərlə, məsələn, formalaşmış baş geyiminin və ya çiynindəki rütbələrin çıxarılması yolu ilə həyata keçirilə bilər. Şərt ondan ibarətdir ki, bu hərəkətlər zərərçəkənə fiziki ağrı və ya sağlamlığına zərər vurmasın. Həmin şəxslərin törətdikləri əməlin ayrıca hüquqi norma kimi qanunvericilikdə göstərilməsinə ehtiyac yaranmışdır və bəzi MDB ölkələrində bu sahədə artıq xüsusi normaların mövcud olmasını görə bilərik. Məsələn, Rusiya Federasiyasının Cinayət Məcəlləsinin 319-cu maddəsində hakimiyyət nümayəndəsinin təhqir edilməsi cinayət əməli kimi öz əksini tapmışdır və 40 000 rus rublu, ictimai işlər, islah işləri və ya azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Həmçinin Belarus Respublikasının Cinayət Məcəlləsinin 369-cu maddəsi hakimiyyət nümayəndəsini təhqir etmə kimi qanunvericilikdə öz yerini almışdır və 3 ilə qədər azadlıqdan məhrumetmə cəzası ilə sanksiyalaşdırılmışdır. Digər MDB ölkələrində isə bu şəxslər ümumi qaydada təhqir cinayətinə görə məsuliyyətə cəlb edilirlər (Criminal Code of Cambodia).

Avropa ölkələrində də müxtəlif yanaşmalar mövcuddur. Son üç il ərzində İspaniyada 48 min nəfər "təhlükəsizlik orqanlarının nümayəndələrinə və üzvlərinə hörmətsizlik" qanununun tələblərini pozduğuna görə cərimələnmişdir. Bu cərimələr, asayiş keşikçilərinə təhqirlərdən başqa, düzgün saxlanılmamış patrul avtomobilinin videosunun bəyənilməsi və paylaşılmasını kimi məsələləri də

əhatə edir. Almaniyada isə hüquq-mühafizə orqanı əməkdaşını təhqir etmək və ya onun barəsində böhtan xarakterli məlumatları qərəzli şəkildə yaymaq 5 ilə qədər azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Eyni zamanda Yaponiya, Cənubi Koreya, Sinqapur kimi dövlətlərdə də hakimiyyət nümayəndəsinin şərəf və ləyaqəti xüsusi normalarla mühafizə edilir (ECHR, 1986).

Yuxarıda göstərilən çoxsaylı nümunələrin mövcudluğuna baxmayaraq, bəzi dövlətlərdə bu məsələ heç də dünyanın digər ölkələrinə bənzəmir. Məsələn, ABŞ-da hüquq-mühafizə orqanlarının əməkdaşlarının təhqir edilməsi heç də qanun pozuntusu hesab olunmur. Belə ki, ABŞ Federal qanunvericiliyinə görə bu ifadə azadlığı kimi dəyərləndirilir və heç bir halda məsuliyyətə səbəb olan əməl kimi qiymətləndirilmir. Yalnız bu təhqir və böhtan xarakterli ifadələr zorakılığa çağırış xarakteri almırsa və hüquq-mühafizə orqanlarının əməkdaşlarının işinə maneə törətməzsə, həmin əməli törədən şəxslər barəsində tədbirlər görülür.

Həmçinin informasiyanın əlçatanlığının artması və informasiya texnologiyalarının inkişafı müasir dövrdə ölkə və hökumət başçılarının ünvanına tənqidlərin daha çox səsləndirilməsi ilə nəticələnmişdir. Lakin heç də bu fikirlər tənqid səviyyəsində qalmamış və bir çox hallarda təhqir halına keçmişdir. Dövlət başçısına qarşı təhqirə görə məsuliyyətin müəyyən edilməsi müxtəlif ölkələrin qanunvericiliyində fərqli yanaşmalarla tənzimlənir. Bir çox hallarda bu cür əməllər şəxsiyyət və ləyaqətə deyil, dövlətə qarşı cinayət kimi qiymətləndirilir. Hüquqi tənzimləmənin əsas məqsədi dövlət başçısının siyasi və hüquqi statusunu qorumaq, onun səlahiyyətlərinin icrası zamanı toxunulmazlığını təmin etməkdir (Thailand Penal Code).

Bir sıra dövlətlərdə bu əməllərə görə məsuliyyət əsasən cinayət xarakteri daşıyır və adi şəxslərə qarşı oxşar əməllərlə müqayisədə daha ağır cəza nəzərdə tutulur. Lakin bu qaydanın istisnası kimi Yunanıstanın qanunvericiliyini göstərmək olar. Belə ki, Yunanıstan Cinayət Məcəlləsinin 168-ci maddəsinə əsasən, dövlət başçısına qarşı təhqir və ya böhtan törətmiş şəxslər üçün maksimum cəza üç aydan artıq deyil. Halbuki, digər şəxslərə qarşı eyni əməllərə görə azı üç aylıq azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur (Yunanıstan Cinayət Məcəlləsinin 363-cü maddəsi).

Beynəlxalq insan haqları təşkilatları və Avropa İnsan Haqları Məhkəməsi (AİHM) dövlət vəzifəli şəxslərinin adi şəxslərlə müqayisədə daha geniş tənqid həddinə dözümlü olmalı olduğunu vurğulamışdır. Məsələn, AİHM-in 1986-cı il tarixli "Linqens Avstriyaya qarşı" qərarında göstərilir ki, siyasi xadimlərə qarşı tənqid sərhədləri digər şəxslərlə müqayisədə daha geniş olmalıdır. Eyni zamanda, Avropa Şurası Parlament Assambleyası 2007-ci ildə 1577 saylı qətnamədə üzv dövlətlərə dövlət və ictimai xadimlərə qarşı hər hansı gücləndirilmiş müdafiə tədbirlərini qanunvericiliklərindən çıxarmağı tövsiyə etmişdir. Həmçinin tənqid və təhqir arasında fərqin müəyyən edilməsi də vacibdir. Heç bir şəxs tutduğu vəzifəyə görə təhqirlərə məruz qalmamalıdır (Griffen).

ATƏT-in media azadlığı üzrə nümayəndəsi də dəfələrlə dövlət başçılarının təhqirinə görə cinayət məsuliyyətinin ləğv edilməsinə çağırış etmişdir. O, 2012-ci ildə Polşada dövlət başçısına qarşı təhqirə görə verilmiş hökmlə bağlı bildirirdi ki, "müasir demokratiyada dövlət başçısının təhqirinə görə cinayət məsuliyyəti yolverilməzdir, xüsusilə də AİHM illər ərzində belə hökmləri ləğv etdiyi halda." Bu yanaşmanın əsas hüquqi əsası ondan ibarətdir ki, dövlət vəzifəliləri onların fəaliyyətləri ilə bağlı daha geniş tənqid və satirik ifadələrə dözməlidir. Təbii ki, bu o demək deyildir ki, insanlar dövlət və ya hökumət başçılarına qarşı tənqiddən təhqirə keçməli və istədiklərini deməlidirlər. Bir insanın hüquqları başqasının hüquqlarının başladığı yerlə məhdudlaşır. Hər hansı bir şəxsin yerinə yetirdiyi dövlət işinə görə şərəf və ləyaqətinin, işgüzar nüfuzunun alçaldılmasına məruz qalması yolverilməzdir (OSCE).

Beynəlxalq sferada fikir müxtəlifliyinə baxmayaraq, dövlət başçılarının təhqirinə görə xüsusi cinayət məsuliyyəti bir çox ölkələrdə qüvvədə qalmaqda davam edir. Qalmasının səbəbi isə həmin ölkələrdə səsləndirilən fikirlərin tənqiddən təhqirə keçməsi hallarının kifayət qədər çox olması ilə əlaqəlidir. Belə ölkələrə Andorra, Azərbaycan, Belarus, Belçika, Danimarka, Almaniya, Yunanıstan, İslandiya, İtaliya, Qazaxıstan, Kamboca, Malta, Monako, Niderland, Polşa, Portuqaliya, San-Marino, Sloveniya, İspaniya, İsveç, Tacikistan, Türkiyə, Türkmənistan, Tailand, Özbəkistan və digər ölkələr

daxildir. Bu ölkələrin qanunvericiliyində dövlət başçısına qarşı təhqir və ya böhtan azadlıqdan məhrumetmə cəzası ilə cəzalandırılır (Republic of Azerbaijan, 1995).

Fərqli ölkələrdə təhqirə görə hüquqi məsuliyyət müxtəlif şəkildə müəyyən olunur.

Tailandda dövlət başçısına – yəni monarxa qarşı təhqirə görə ən sərt cəza nəzərdə tutulur. Tailand Cinayət Məcəlləsinin 112-ci maddəsinə əsasən, bu əməlin törədilməsinə görə üç ildən on beş ilə qədər azadlıqdan məhrumetmə cəzası tətbiq edilir. Bu maddə milli təhlükəsizliyə qarşı cinayətlər bölməsinə aid edildiyi üçün monarxın yalnız şəxsiyyətini deyil, həm də onun dövlət institutları ilə əlaqəsini qorumağa xidmət edir. Əgər təhqir açıq və ictimai şəkildə ifadə olunarsa, məsələn, televiziya verilişlərində və ya sosial mediada yayımlanarsa, cəza bir altıda artırıla bilər (Criticism Mounts Against Thai Royal Defamation Law).

Türkiyənin Cinayət Məcəlləsinin 299-cu maddəsinə əsasən, prezidentin təhqir edilməsi ayrıca cinayət tərkibi kimi müəyyən edilmişdir. Bu maddə dövlətə qarşı cinayətlər bölməsində yerləşir və ümumi diffamasiya normalarından ayrı tənzimlənir. Prezidentin təhqir edilməsinə görə bir ildən dörd ilə qədər azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur. Cinayətin törədilmə forması – məsələn, şəxsin iştirakı ilə və ya qiyabi olaraq törədilməsi – məsuliyyətə təsir etmir. Qeyd edək ki, bu norma son illərdə az tətbiq edilsə də, Türkiyə məhkəmə praktikasında müəyyən hallar üzrə istifadəyə davam olunur (Turkish Criminal Code, 2004).

Almaniya Cinayət Məcəlləsinin 90-cı maddəsinə əsasən, prezidentin ictimai şəkildə təhqir olunmasına görə üç aydan beş ilə qədər azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur. Bundan əlavə, məhkəmə təqsirkar şəxsin müəyyən peşə fəaliyyətini icra etməsini qadağan edə bilər. Cinayət törədən şəxs dövlət vəzifəsi tuta bilməz, seçkilərdə iştirak hüququndan məhrum edilə bilər. Lakin, bu cür işlər yalnız prezidentin yazılı razılığı ilə başlanıla bilər (Scholars call for reform of Thai lese majeste law).

Belçika qanunvericiliyində kralın təhqir edilməsi ayrıca cinayət tərkibi kimi müəyyən edilmişdir. 6 aprel 1847-ci il tarixli "Kralın Təhqirinə qarşı Cinayətlərin Təqibi Haqqında" Qanuna əsasən, ictimai yerlərdə və ya geniş auditoriya qarşısında kralı təhqir edən şəxs altı aydan üç ilə qədər azadlıqdan məhrum edilə bilər. Son illərdə sosial mediada yayılan təhqirlərlə bağlı da bu qanun tətbiq olunur.

Polşa Cinayət Məcəlləsinin 135-ci maddəsinə əsasən, prezidentin ictimai şəkildə təhqir edilməsi üç ilə qədər azadlıqdan məhrumetmə cəzası ilə cəzalandırılır. Son illərdə Polşada bu norma aktiv tətbiq olunmuş, xüsusilə yazıçı Yakub Jujlikin prezident Andjey Dudanı "idiot" adlandırmasına görə məsuliyyətə cəlb edilməsi beynəlxalq müzakirələrə səbəb olmuşdur. Bununla belə, son dövrlərdə məhkəmələr faktiki olaraq real həbs cəzası təyin etməmişdir. (Poland should abolish criminal defamation, says OSCE media freedom representative following conviction of editor.)

## Nəticə

Beynəlxalq təcrübə göstərir ki, dövlət başçısının təhqir olunmasına görə xüsusi cinayət məsuliyyətinin olmaması bu şəxslərin təhqirdən qorunmadığını ifadə etmir. Belə hallarda dövlət vəzifəlilərinə qarşı böhtan və ya təhqir ümumi qaydalar əsasında mühakimə edilir.

Azad ifadə hüququ demokratik cəmiyyətlərin fundamental prinsiplərindən biri olsa da, dövlət başçısının və dövlət hakimiyyətin nümayəndələrinin ləyaqətinin qorunması ilə bu hüquq arasında balans saxlanmalıdır. Kritik ifadə azadlığı qorunmalıdır, lakin bu, şəxsi təhqirə və ya böhtana çevrilməməlidir. Təəssüflər olsun ki, cəmiyyətimizin bəzi təbəqələrinin hüquq düşüncəsinin lazımi səviyyədə olmaması səbəbindən ölkə qanunvericiliyində dövlət hakimiyyət nümayəndələrinin, mərkəzi icra hakimiyyəti orqanı rəhbərlərinin, dövlət və hökumət başçılarının şərəf, ləyaqət və işgüzar nüfuzunun xüsusi normalarla mühafizə altına alınması zəruridir. Bu səbəbdən qanunvericilik orqanı tərəfindən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Cinayət Məcəlləsinə müvafiq əlavələrin edilməlisi tərəfimizdən məqsədəmüvafiq hesab olunur.

## Ədəbiyyat

1. Council of Europe. (2007, October 4). *Towards the abolition of criminal liability for defamation: Resolution No. 1577 of the Parliamentary Assembly (34th meeting)*.
2. Criminal Code of Cambodia. (n.d.). *(Əlavə məlumat və rəsmi mənbə göstərilmədiyinə görə tam APA formatında istinad üçün dəqiq nəşr və URL tələb oluna bilər)*.
3. European Court of Human Rights. (1986, July 8). *Lingens v. Austria (Complaint No. 9815/82)*. https://hudoc.echr.coe.int/
4. Griffen, S. (n.d.). *Defamation and insult laws in the OSCE region: A comparative study*. OSCE. https://www.osce.org/fom/303181
5. Greek Penal Code. (n.d.). Retrieved from http://www.c00.org/p/greek-penal-code.html
6. OSCE. (n.d.). *Poland should abolish criminal defamation, says OSCE media freedom representative following conviction of editor*. https://www.osce.org
7. Republic of Azerbaijan. (1999). *Criminal Code of the Republic of Azerbaijan*.
8. Republic of Azerbaijan. (1995). *Constitution of the Republic of Azerbaijan*.
9. Scholars call for reform of Thai lese majeste law. (n.d.). *(Mənbə və yayımlandığı platforma qeyd olunmalıdır. Əgər xəbər saytıdırsa, URL ilə birlikdə tam göstərilməlidir)*.
10. Thai royal defamation law under criticism. (n.d.). *Criticism mounts against Thai royal defamation law*. *(Rəsmi mənbə və yayım tarixi əlavə edilməlidir)*.
11. Thailand Penal Code. (n.d.). Retrieved from https://www.samuiforsale.com/law-texts/thailand-penalcode.html
12. Turkish Criminal Code. (2004, September 26). *Law No. 5237*.

Daxil oldu: 15.01.2025
Qəbul edildi: 20.04.2025